BİRİNCİ BAKI TÜRKOLOJİ QURULTAYINDA ƏLİFBA MƏSƏLƏSİ

Mahirə Hüseynova

Filologiya elmləri doktoru, professor

ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru

huseynova.mahira@yandex.ru

http://orcid.org/0000-0002-5135-1666

Xülasə: Birinci Bakı Türkoloji Qurultayı (1926) türk dünyası üçün mühüm elmi və mədəni hadisə olmuş, burada əlifba məsələsi geniş müzakirə obyektinə çevrilmişdir. Qurultayda latın və ərəb qrafikası tərəfdarları arasında ciddi fikir ayrılıqları yaranmış, lakin ümumi fikir ondan ibarət olmuşdur ki, yeni əlifba türk dillərinin fonetik quruluşuna uyğun və savadlanma prosesini asanlaşdıracaq şəkildə olmalıdır. Çıxışlarda ərəb əlifbasının çətinliyi və uyğun olmaması, latın əlifbasının isə sadəliyi və fonetik uyğunluğu ön plana çəkilmişdir. Alimlər arasında fonetik və etimoloji prinsiplərin birgə tətbiqinin daha məqsədəuyğun olduğu qənaəti formalaşmışdır. Həmçinin türk dillərindəki ahəng qanunu, sait bolluğu və alınma sözlərin yazılışı məsələlərinə də toxunulmuşdur. Qurultayda irəli sürülən fikir və təkliflər türk dünyası üçün vahid yazı sisteminin elmi əsaslarını qoymuşdur. Məruzələrdən və çıxışlardan əldə edilən nəticələr bu sahədə sonrakı dövr tədqiqatları üçün zəngin mənbə rolunu oynamışdır. Ümumilikdə, bu Qurultay türk dillərinin yazı mədəniyyətində dönüş nöqtəsi hesab olunur.

Açar sözlər: Birinci Bakı Türkoloji Qurultayı, əlifba islahatı, latın və ərəb qrafikası, orfoqrafiya prinsipləri, türk dilləri.

Giriş. Türk xalqlarının yazı mədəniyyəti tarixi yalnız qrafik sistemlərin dəyişməsi ilə deyil, həm də milli kimliyin, dil şüurunun və mədəni modernləşmə ideyasının formalaşması ilə səciyyələnir. Bu baxımdan 1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk dünyasında əlifba və orfoqrafiya islahatlarının ideoloji, elmi və sosial əsaslarının müəyyənləşdirildiyi mühüm tarixi mərhələ kimi xüsusi əhəmiyyət daşıyır. Qurultayda yeni əlifbaya keçidin zəruriliyi yalnız texniki qrafik dəyişiklik deyil, türk xalqlarının maarifləndirilməsi, savadsızlığın aradan qaldırılması və ümumi mədəni inkişaf strategiyasının əsas komponenti kimi qiymətləndirilmişdir.

Qurultayın gündəliyində əlifba və orfoqrafiya məsələləri mərkəzi yer tutmuş, latın və ərəb qrafikaları arasında aparılan elmi mübahisələr türk dillərinin fonetik təbiəti, morfoloji quruluşu və tarixi inkişafı prizmasından əsaslandırılmışdır. Bu müzakirələr nəticəsində türk dilləri üçün fonetik və etimoloji prinsiplərin kombinasiyasına əsaslanan ortaq yazı modeli ideyası formalaşmış, əlifba islahatı dilin səs sisteminə uyğunluq, yazının sadələşdirilməsi və kütləvi savadlanma məqsədlərinə xidmət edən strateji qərar kimi qəbul edilmişdir.

Məqalədə Birinci Bakı Türkoloji Qurultayının əlifba və orfoqrafiya müzakirələri stenoqram materialları əsasında təhlil olunur, əsas məruzə və çıxışlarda irəli sürülən elmi prinsiplər sistemləşdirilir və onların Azərbaycan dilinin yazı mədəniyyətinin sonrakı inkişaf mərhələlərinə təsiri araşdırılır.

Tədqiqat. Birinci Bakı Türkoloji Qurultayı (1926) türk xalqlarının yazı sisteminin elmi əsaslar üzərində yenidən qurulması istiqamətində ilk sistemli və ümumtürk miqyaslı təşəbbüs kimi tarixə düşmüşdür. Qurultayın stenoqram materiallarının təhlili göstərir ki, əlifba və orfoqrafiya məsələləri burada yalnız texniki qrafik dəyişiklik çərçivəsində deyil, dilin fonetik təbiəti, tarixi inkişafı və sosial funksiyası kontekstində müzakirə edilmişdir. Qurultayın 12

iclasından 3-nün, dinlənilmiş 32 məruzədən 7-nin bilavasitə əlifba məsələsinə həsr edilməsi bu mövzunun mərkəzi əhəmiyyətini təsdiqləyir.

Əlifba müzakirələrinin elmi bazasını L.V.Şerbanın "Orfoqrafiyanın əsas prinsipləri və onların sosial əhəmiyyəti" adlı məruzəsi təşkil etmişdir. Şerba yazı sistemində fonetik, etimoloji, tarixi və ideoqrafik prinsiplərin vəhdətdə tətbiq edilməsinin zəruriliyini əsaslandıraraq, türk dilləri üçün xüsusilə fonetik və etimoloji prinsiplərin kombinasiyasını ən optimal model kimi təqdim etmişdir. Bu yanaşma türk dillərinin aqlütinativ quruluşu, sait harmoniyası və morfoloji şəffaflığı ilə uzlaşan elmi konsepsiya kimi qurultay iştirakçıları tərəfindən geniş dəstək qazanmışdır.

Müzakirələrdə L.İ.Jirkov, S.Rəhimi, F.Ağazadə, Ə.Boytürsun, N.F.Yakovlev kimi alimlərin çıxışları əlifba və orfoqrafiya məsələsinin müxtəlif aspektlərini tamamlamışdır. Jirkov türk dillərində alınma sözlərin fonetik uyğunlaşma problemi üzərində dayanaraq, ərəb qrafikasında islahatların aparılmasını mümkün variant kimi irəli sürmüş, lakin onun mövqeyi ümumtürk miqyasında ortaq latın qrafikasına keçid ideyasına alternativ olaraq məhdud dəstək qazanmışdır. S.Rəhimi isə sait səslərin qrafik ifadəsindəki çatışmazlıqları vurğulayaraq, orfoqrafiya islahatının əlifba islahatı ilə paralel aparılmasının zəruriliyini əsaslandırmışdır.

F.Ağazadənin tezislərində latın qrafikasının türk dünyası üçün vahid yazı modeli kimi tətbiqi, alınma sözlərin fonetik prinsip əsasında yazılması, xüsusi adların böyük hərflə verilməsi və lüğət tərtibatında vahid normativ prinsiplərin müəyyənləşdirilməsi məsələləri ön plana çəkilmişdir. Ə.Boytürsun və N.F.Yakovlev isə fonetik və morfoloji-etimoloji prinsiplərin müxtəlif funksional müstəvilərdə tətbiqinin daha məqsədəuyğun olduğunu irəli sürmüş, qədim yazı ənənəsinə malik xalqlarda etimoloji, yeni yazı sisteminə keçən xalqlarda isə fonetik prinsipin üstünlüyü fikrini elmi cəhətdən əsaslandırmışlar.

Stenoqram materiallarının müqayisəli təhlili göstərir ki, Qurultayın əlifba müzakirələri nəticəsində türk dilləri üçün vahid, elmi əsaslandırılmış orfoqrafik modelin konturları formalaşmış, bu model sonrakı illərdə latın əsaslı yeni türk əlifbalarının yaradılmasında metodoloji baza rolunu oynamışdır. Beləliklə, 1926-cı il Qurultayı yalnız qrafik islahat aktı deyil, türk xalqlarının yazı mədəniyyətinin modernləşdirilməsinin elmi konsepsiyasını formalaşdıran fundamental mərhələ kimi qiymətləndirilə bilər.

1926-cı ildən 26 fevralından martın 6-na kimi keçirilmiş Birinci Türkoloji qurultayda ilkin ideya yeni əlifbaya keçməyin zəruriliyi kimi geniş müzakirə obyektinə çevrildi. Türk dünyasında böyük əks-səda doğuran bu möhtəşəm qurultayın 3 iclası yeni əlifba məsələsinə həsr edilmişdi və qohum xalqların və eyni zamanda qeyri-türk millətlərinin də nümayəndələri bu tədbirdə iştirak edirdilər. Qurultayın 10 günlük gərgin və səmərəli iş gedişatında 12 iclası keçirilmiş, 32 məruzə dinlənilmiş və bu məruzələrdən 7-si əlifba məsələsinə həsr olunmuşdur və ən qızğın mübahisələr yeni əlifbanın müzakirəsi zamanı baş vermişdir. İclaslarda latınçılarla ərəbçilər bir-birlərinə əks-zidd qütblərdə durur, biri ərəb əlifbasının qalmasını, digərləri isə latın əlifbasına keçməyin zəruriliyini israrla təkid edirdilər.

Əlifba dünyanın bütün xalqlarının ən böyük mədəniyyət abidəsidir və o, hər hansı bir dilin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməyəndə haqlı olaraq xalqların tərəqqipərvər, mütərəqqi maarifpərvər ziyalılarının vaxt gəlir ki, narazılığına səbəb olur. Hələ İslam dininin qəbulundan çox-çox əvvəl türk etnoslarının ən qədim əlifbası olmuş və Orxon-Yenisey, Göytürk daş kitabələrindəki yazılarda bu əlifbanın hərfləri və səsləri ifadə edilmişdir. Bəlkə də şumerdən çox-çox əvvəl yaranmış Qobustan, Gəmiqaya, Zəngəzurda Nügədi qaya təsvirləri də türkün yaratdığı əlifbanın səs sisteminin ifadəsidir və *"tarixi faktlar da sübut edir ki, bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir"*

(Əliyev H. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 9 avqust, 2001-ci il).

Uzun illər "1926-cı il Birinci Bakı Türkoloji qurultayı"nın stenoqramı ruscadan dilimizə çevrilməmiş vəziyyətdə qalmış və nəhayət 2006-cı ildə K.V.Nərimanoğlu və Ə.Ağakişiyevin tərcüməsi, ön söz və şərhlərinin müəllifliyi ilə Bakıda "Çinar-Çap" müəssisəsində nəşr edilmişdir. 520 səhifədən ibarət bu stenoqram topluda qurultayda məruzə və çıxışla iştirak edən bütün ziyalıların yazıları əksini tapmışdır ki, bütün bunlar hazırda araşdırma aparmaq istəyən tədqiqatçıların işini olduqca asanlaşdırır.

Cəmi keçən əsrin 11 ili Azərbaycanda latın əsaslı əlifbadan istifadə edildi və bu barədə Ümumilli liderimiz H.Əliyevin *"Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında"* Fərmanında deyilir ki, *"1993-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumitttifaq Türkoloji Qurultayın tövsiyyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda tətbiq edildi. Qısa bir müddət ərzində latın əsaslı Azərbaycan əlifbasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan dili və mədəniyyətinin söz quruluşuna uyğun gəlməməsi Azərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi. Təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılması yolunda nə qədər cəhd göstərilsə də optimal variantın əldə edilməsi mümkün deyildir, bu da onun nə vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirdi*" (H.Əliyev). 1991-ci ildə kiril qrafikasından latın əlifbasına keçid hadisəsi gerçəkləşdirildi və ölkəmizdə 2001-ci il avqust ayında Ulu Öndərimiz tərəfindən Fərman verilərək Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilməsinə başlanıldı.

Uzun əsrlər boyu xalqımız ərəb əlifbasından istifadə etdiklərinə görə onun çətinlikləri ilə üzləşmiş və bunları müxtəlif dövrlərin tərəqqipərvər şair və yazıçıları da öz yaradıcılıqlarında dönə-dönə vurğulamış, giley-güzarlarını bildirmişlər və bunlardan biri XVI əsrin dahi şairi Məhəmməd Füzuli olmuşdur. Bu böyük söz ustadı ərəb əlifbasındakı nöqtələrin çoxluğundan və bu səbəbdən onların gözləri kor eyləməsindən çoxlu şikayətlənmişdir. Ərəb əlifbasında sait hərflərinin olmaması və onların yerində nöqtələrdən istifadə edilməsi XIX əsrin Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatının böyük karifeyi Mirzə Fətəli Axundovu da dərindən düşündürmüş və bu söz sənətkarı ömrünün 30 ilə qədərini əlifba islahatına, yəni onun dəyişdirilərək, nöqtələrin azaldılması yolu ilə asanlaşdırılmasına çalışmış, nəticədə ərəb qrafikası əsasında bir əlifba tərtib etmiş və uzun illərlə onu həyata keçirmək üçün İran və Osmanlı dövlət orqanlarının qapısını döymüş və onlardan müəyyən bir cavab ala bilməmiş, bununla da xalqın tərtib edilməsi asan olan əlifba vasitəsilə bir ayın içərisində hərfləri və səsləri mənimsəməsi, ölkəni qısa müddətdə savadlılar ölkəsinə çevirmək arzusu ürəyində qaldı. Ömrü boyu bir neçə əlifba layihəsi tərtib edən Mirzə Fətəli 1952-ci ildə onlardan birini daha da təkmilləşdirərək onu həyata keçirmək üçün Türkiyə Elmlər Akademiyasına təqdim etmiş, həmin layihə bəyənilsə də, sonralar rədd cavabı verilmişdir. M.F.Axundovun bu əlifba layihəsinin həyata keçirilməsinə ən çox və ciddi maneçilik törədənlər İran dövlət nümayəndələri oldular. Axundovun əlifba layihəsinin reallaşmadığını görən M.Şahtaxtinski öz tərtib etdiyi əlifbanı irəli sürmüş və bu layihədə ərəb əlifbasındakı nöqtələri əvəz edən yeni cızıqlardan istifadə etmiş və o, öz əlifbasının orijinallığını belə izah etmişdir: *"Nöqtələr yerinə mən hürufun əşkali-əsasiyyəsinə təzə cızıqlar əlavə edib hər hərfə özünə məxsus bitişik bir şəkil vermişəm. Bizim hürufun mətbu heyətləri ilə yazma şəkilləri arasında təfavüt yoxdur. Nə yazıda, nə də basmada bir-birinə yapışdırılmazlar. Bizim hürufun hamısının boyu birdir"* (2, s.183-184).

1. Qurultayda əlifba məsələsi 1 mart 1926-cı ildə Qorxmazovun sədrliyi ilə keçirilən yeddinci iclasda qoyuldu və Şerba "Orfoqrafiyanın əsas prinsipləri və onların sosial əhəmiyyəti" adlı məruzə söylədi və bu məruzənin indiki vəziyyətdə stenoqramdan tərcüməsi 5 kitab səhifəsi həcmindədir. Faktiki sözlərin necə yazılması, oxunması və burada hansı üsul və prinsipləri tətbiq

etmənin yollarını qısa şəkildə şərh etdikdən sonra məruzəçi əlifba məsələsinin üzərinə gəldi və əlifba probleminin də bu məsələlərlə üzvi şəkildə bağlılığının izah edilməsinə çalışdı, göstərdi ki, *"Rus dilində bir sıra hallarda "o" hərfi "a" səsini bildirir. Hamıya məlum nümunə: "vada" deyilir, "voda" yazılır. Əlbəttə, bu tamamilə düzgün deyil. Rus əlifbasında "o" heç də "a" demək deyil və bu, orfoqrafiya məsələsidir. Biz "voda" sözündə "o" işlətməklə yazdığımız zaman çox yaxşı başa düşürük ki, hansısa başqa bir xüsusi səbəblər üzündən "o" səsini eşitdiyimizdən tamamilə fərqli şəkildə təsvir edirik. Həmin səbəblər haqqında bir qədər irəlidə danışacağıq. Başqa bir nümunə: "kavo, çevo", "q" ilə yazılır, "v" ilə deyilir. Bu heç də rus dilində "q"-nın "v" mənası daşıması demək deyil. Bunun əlifba məsələsinə heç bir dəxli yoxdur. Köhnə, indi artıq aradan qaldırılan saitdən əvvəl "i" yazmaq qaydası da əlifba qaydasıdır. Fransız dilində "g" hərfi "e", "i", "y" hərflərindən əvvəl "j", "a", "o", "i" hərflərindən əvvəl isə "r" kimi tələffüz edilir. Bu da əlifba qaydasıdır. Bəlkə əlifbanın nə olduğu bu misallar əsasında aydınlaşır. Burda bir sıra müxtəlif məsələlər var. Belə ki, məsələn, əlifbada heroqlif prinsipi ola bilər, yəni işarə ilə səs qrupu ifadə edirlər. Yaxud sillabik prinsip ola bilər. Daha sonra – monoqrafiya, diqrafiya, triqrafiya məsələləri, çoxmənalılıq və birmənalılıq məsələləri. Budur əlifba məsələləri"* (1, s.152-153).

Məruzəsində məntiqi ardıcıllığa düzgün riayət etməyə çalışan Şerba diqqəti orfoqrafiyanın sosial həyatdakı rolunun əsas cəhətlərinə yönəldir və burada bu problematik mövzunun 4 prinsipi olduğunu və bu prinsiplərin bir-birini tamamladığını, vəhdət yaratdığını rus dilindən gətirdiyi faktik nümunələrlə xarakterizə etdi. Fonetik, etimoloji, tarixi, ideoqrafik prinsiplərin hər birinə ayrı-ayrılıqda məruzəsində nəzər yetirən və bu prinsiplərin tarixən ardıcıl inkişaf etməsi yollarından geniş danışan natiq sonda türk dillərinə tətbiq ediləsi prinsiplərin üzərinə gəlir və qeyd edir ki, *"əslində türk xalqları üçün ən düzgünü fonetik və etimoloji prinsiplərin kombinə edilməsi, həm də hər biri ayrıca halda özünəməxsus və müxtəlif şəkildə kombinə edilməsi olardı, çünki, burada ümumi qaydalar verilməsi heç cür mümkün deyil. Əlbəttə, mən bunu çox ehtiyatla deyirəm. Bu məsələlər əməli, həyati məsələlərdir və onun düzgün həllini elə həyat göstərməlidir"* (Stenoqram, s.155-156).

Şerbanın məruzəsindən sonra türkcə Odabaş, tatarca isə İbrahimov danışdıqdan sonra söz məruzəçi L.İ.Jirkova verilir və o, qısa şəkildə Şerbanın məruzəsinin ümumi cəhətlərinə münasibətini bildirir, türkcələrə daxil olmuş tarixi alınma sözlərin düzgün yazılış məsələlərindən, harmonizmin sayəsində nizamlı, düzgün türk orfoqrafiyasını bərqərar etməyin son dərəcə asan olacağını dilə gətirmişdir: *"Əlifbada kifayət qədər işarə olması bu məsələni lazımi reallıqla əks etdirməyə imkan verir, lakin türk dillərində alınma sözlər ahəng qanununa tabe olmaya bilər və tez-tez olmur da. Bu baxımdan, müxtəlif türk dilləri özlərini müxtəlif cür aparır; iqtibas etdiyi dillərə yaxın olan bəzi türk dilləri həmin sözləri özlərinə uyğun şəkildə dəyişir. Burada iki sosial əsası fərqləndirmək lazımdır – bu sözləri xalq dili və ədəbi dil necə qavrayır və dəyişdirir. Əgər siz azərbaycanca hətta qəzet belə götürsəniz, görərsiniz ki, orada deyildiyi kimi yazılmayan sözlər var. Buna görə belədir ki, türk ədəbiyyatları heç vaxt xalq dilinə əsaslanmayıb, xalq kütlələrinə ünvanlanmayıb, yuxarı aristokratiyaya üz tutub"* (2, s.156-157). İxtisasca türkoloq olmayan L.İ.Jirkov özünün düşüncə tərzinə müvafiq şəkildə ərəb və fars sözlərinin daxil olduğu türk dillərində inkişaf etdiyini və həmin dillərin fonetik sisteminə uyğunlaşdığını, gələcəkdə ərəb əlifbasında islahat apararkən tələffüz prinsipinin gözlənilməsi məsələsinə diqqət yetirməyin zəruriliyindən danışdı və *"Mən bu sözlərin fonetik yazılışına keçməyə cəhd göstərilməsinə tərəf oluram"* (3, 152) – cümləsini tezis şəklində ortaya atdı. Türkcələrdə vahid orfoqrafiya prinsiplərinin olmamasından gileylənən məruzəçi yeni latın əlifbasında bir sıra ağrılı problemlərin meydana çıxmasından və bir sıra sözlərin dörd müxtəlif şəkildə yazılışından bəhs etdi və L.V.Şerbanın bu barədə söylədiyi fikirləri müdafiə predmetinə çevirdi. Təxminən 3 kitab səhifəsi həcmində olan L.İ.Jirkovun çıxış mətninin ümumi məzmunundan belə anlaşılırdı ki, o türklər üçün ortaq yeni latın əlifbasının deyil, ərəb hərflərində müəyyən islahatlar apararaq, onu tətbiq etməyin tərəfdarıdır. Çıxışının sonunda məruzəçi rus dilini başa düşməyən qurultay nümayəndələri üçün türk dilində çıxışının xülasəsini oxuyur və onun ardınca çıxış etmək üçün

söz özbək dilçisi Sabircan Rəhimiyə verilir və o, öz çıxışını özbək dili əsasında edir. S.Rəhimi türk orfoqrafiyasının dəqiqləşməsi üçün qohum dillərin 4 əsas xüsusiyyətini nəzərə almağı təklif edir ki, onlardan birincisi sinharmonizmdir, ikincisi isə aqlütinativləşmədir ki, bunlar haqqında L.V.Şerba öz məruzəsində geniş bəhs etmişdir. Üçüncüsü ləhcələrə qarşı kəskin mübarizə aparmaq, dördüncüsü yeni sözlərin, yeni hərflərin türk ədəbi dillərinin öz aralarında bunları razılaşdırmaqdan ibarətdir və çıxışda bütün bu meyarları qohum dillərlə müqayisə edən çıxışçının 2 səhifə həcmində danışdıqlarını Uzmanov özbək dilindən ruscaya tərcümə edir (3, 158-160) və deyir ki, Rəhiminin əsas fikri aşağıdakından ibarətdir: *"Türk dillərində, o cümlədən özbək dilində sinharmonizm var; şəhər sakinlərinə tacik dilinin nüfuzunun təsiri altında bu sinharmoniya pozulsa da, qışlaq əhalinin dilində qalmaqdadır. O deyir ki, sait səslərin göstərilməsi üçün işarələrin çatışmamasının birinci qüsuru ondan ibarətdir ki, bəzi xalqlarda, bəzi tayfalarda sait səslərin sayı 6-8, hətta 13-dür, halbuki Özbəkistan qurultayı cəmi 6-sını göstərib, biz isə həyatda xeyli çoxunu görürük, lakin sait səslərin göstərilməsi üçün hərflər çatışmır. Özbək yazısında 23 işarə olmasına, sonra isə bunlarda daha 3 işarənin əlavə edilməsinə baxmayaraq, o bunu özbək əlifbasının əsas çatışmazlığına aid edir. Ərəb dilində istifadə edilən və məsələn, tatarların imtina etdikləri "həmzə" işarəsi hələ də özbəklərin yazısını ağırlaşdırmaqdadır; əlbəttə, onlarda da bu həmzə işarəsi ləğv olunacaq. Yoldaş Rəhimi deyir ki, orfoqrafiyanın islahatı məsələsi əlifba məsələsi ilə sıx əlaqədardır, çünki ərəb əlifbasını uyğurlaşdırmaq çox çətin olacaq və orfoqrafiya məsələsini ikinci məsələ-əlifba məsələsi ilə əlaqələndirmək lazımdır ki, onun həlli Qurultaydan asılıdır; bu halda, orfoqrafiyanın özünün də məsələsi asanlaşacaqdır"* (3, 160).

L.İ.Şerbanın məruzəsi ətrafında çıxış edənlərdən biri də F.Ağazadə idi və o, məruzəsinin tezislərini əvvəlcə türkcə, sonra isə rusca oxudu. Bu tezislər 9 maddədən ibarətdir və bu 6 maddə a, b, v, q hərfləri ilə işarələnməklə 4 yarımmaddəni təşkil edir. Türk dillərinə daxil olmuş ərəb sözlərinin istisnasız olaraq həmin dillərin vahid yazılış qaydalarına malik olması; həmin sözlərə türk dilləri üçün münasib fonetik prinsiplərin tətbiq edilməsi, fonetik yazılışın tələffüzə əsaslanması, ərəb sözlərinin türk fonetikasına tabe etdirilməsi, yeni latın qrafikasının türk dünyasına istisnasız olaraq tətbiq edilməsi, şəxs və coğrafi adların böyük hərflə yazılması, həm sadə, həm də mürəkkəb sözlərin ayrı-ayrılıqda qruplaşdırılması, sözlərin sətirdən-sətirə keçirilməsində heca bölgüsünün nəzərə alınması, türk dilinə daxil olmuş Avropa sözlərinin 9 şərtə əməl etməklə işlədilməsi, nəhayət, bütün bu göstərilən meyarlar əsasında lüğətlər tərtib etmək kimi məsələlər F.Ağazadənin məruzəsinin ümumi məzmununu xarakterizə edir (3, s.160-161).

I Bakı Türkoloji qurultayının materiallarını dilimizə tərcümə edən müəlliflər stenoqrafdakı ardıcıllığa tam şəkildə riayət etmiş və buna müvafiq şəkildə çıxış üçün növbəti sözün qazax alimi Əhməd Boytürsuna verildiyi əks olunmuşdur. Bu alim L.İ.Şerbanın səs qanunlarının öyrənilməsinə tətbiq edilən prinsiplərə toxundu və dedi ki, *"Mən başqa dilləri yaxşı bilməsəm də bizim dillərdən qazax və qırğız dillərini yaxşı bilirəm. Bunlar da ahəngdar dillərdir. Burada səs qanunları çox ciddidir, sözün sonunda hər bir səs kimyəvi elementin verdiyi reaksiyanı verir. Bu, ən həmahəng, ən kamil dildir. Digər türklərin də dilləri bunun eynisidir ki, əsas kimi məhz etimoloji prinsipi götürməyə heç bir ehtiyac yoxdur"* (3, s.161). Ə.Boytürsunun bu fikri çıxışçıların əksəriyyətində narazılıq yaratdı və morfoloji, yaxud da etimoloji prinsipin türk dilləri üçün ən münasib üsullardan biri olduğu əksər dilçilər tərəfindən dönə-dönə təsdiqini tapdı. Ə.Baytürsunun çıxışından sonra danışan N.F.Yekovlevin nəzərincə, türkcələrin ədəbi dillərinə fonetik, dialektlərarası ədəbi dilə isə etimoloji prinsipin tətbiqinin düzgün olduğu əsaslandırılırdı və məruzəçi mühüm bir məsələyə də diqqət yetirərək göstərdi ki, *"Mənə elə gəlir ki, əlifba ilə orfoqrafiya arasında əlaqə, əlbəttə, mövcuddur. Elə əlifbada işarələrin sayı məsələsini götürək. Gərək ki, qırğız dilində əlifbanı yoldaş Baytürsun özü tərtib etmişdi və və onun incəlik işarəsini daxil etməsi nəticəsində əlifbada işarələrin sayı azalmışdır. Deməli, orfoqrafiya birbaşa aidiyyatı olan yazı sistemi ilə əlifbadakı işarələrin sayı arasında, şübhəsiz, məlum əlaqə var. Əgər belə əlaqə varsa, burada orfoqrafiya məsələsi qaldırılarkən çıxış edən*

bütün yoldaşların əlifba məsələsini də bura qatmaları da tamamilə təbiidir" (3, s.162-163). Yazının yeni olduğu xalqlarda fonetik prinsipin, qədim olduğu xalqlarda etimoloji – morfoloji prinsipin üstün olması-fikri bütün qurultay iştirakçıları tərəfindən müsbət və alqışlarla qarşılandı.

I Bakı Türkoloji Qurultayın 6-cı iclasındakı məruzə və çıxışlarının təhlillərindən belə bir ümumiləşdirməyə gəlmək olar ki, türk dillərinin orfoqrafiyasına tərtib edilməli olan əsas prinsiplərdən geniş danışılmış, türkcələr üçün fonetik və etimoloji prinsiplərin əlverişli olması qəbul edilmişdir.

Nəticə. Tədqiqat nəticəsində müəyyənləşdirildi ki, 1926-cı il Birinci Bakı Türkoloji Qurultayı türk xalqlarının yazı mədəniyyətinin modernləşdirilməsində həlledici mərhələ olmuşdur. Qurultayda fonetik və etimoloji prinsiplərin kombinasiyasına əsaslanan orfoqrafik model qəbul edilmiş və bu model Azərbaycan dilinin latın qrafikasına keçidinin elmi-nəzəri əsasını təşkil etmişdir. Sözügedən qərarlar müasir Azərbaycan əlifbasının formalaşmasına mühüm təsir göstərmişdir. Qurultay müzakirələri yazı sisteminin dilin fonetik quruluşuna uyğunlaşdırılmasının zəruriliyini elmi şəkildə əsaslandırmışdır. Nəticə etibarilə, Birinci Bakı Türkoloji Qurultayı müasir türkoloji dil siyasətinin formalaşmasında fundamental mərhələ kimi qiymətləndirilə bilər.

Ədəbiyyat

1. 1926-cı il I Bakı Türkoloji Qurultayının stenoqram materialları, biblioqrafiya və foto-sənədlər. Tərtib edənlər: Nərimanoğlu K.V., Ağakişiyev Ə. Bakı, "Çinar-çap", 2006.
2. Babayev A. 1998) Bəkir Çobanzadənin yeni Azərbaycan əlifbası və orfoqrafiyası uğrunda mübarizəsi, Bakı.
3. Birinci Türkoloji Qurultayının Stenoqram hesabatı, (1926) 26 fevral-5 mart.
4. Cəfərov N., Hüseynova M., Qəribli A. Birinci Türkoloji Qurultayda etnoqrafiya məsələləri. https://edebiyyatqazeti.az/news/sience/13215-birinci-turkoloji-qurultayda-etnoqrafiya-meseleleri
5. Eyvazov P. I (2016) Bakı Türkoloji Qurultayında Bəkir Çobanzadə türk dillərinin leksik quruluşu haqqında. Müasir Türkologiya: Dünən, bugün və sabah. Respublika elmi konfransının materialları, Bakı, "Elm və təhsil",.
6. Fərəh A. (2006) Birinci Türkoloji Qurultay haqqında düşüncələr, Ədəbiyyat qəzeti, Bakı.
7. Hacıyev T. (2012) Azərbaycan ədəbi dili tarixi II hissə, Bakı, Elm, 389 s.
8. Hacıyev T. (2006) Birinci Türkoloji Qurultayda dil məsələləri / BDU-nun "Bakı Universiteti Xəbərləri" elmi jurnalı. Bakı, № 2, s. 18-26.
9. Həbibbəyli İ. (2016) Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar. "Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" beynəlxalq konfransın materialları, I hissə, Bakı, S. 7-12.
10. İbrahimov E. (2017) Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili, Bakı:Mütərcim.
11. Məmmədova E. Birinci türkoloji qurultay və dil məsələləri. Elmi iş. Humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal. №10, 2019/49
12. Tahirov İ. (2016) I Türkoloji Qurultay və müqayisəli dilçilik məsələləri. "Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" beynəlxalq konfransın materialları, I hissə, Bakı, S. 72-75